ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTUNUN TƏDQİQAT ETİKASI KOMİSSİYASININ İŞ PRİNSİPLƏRİ**

1) Dissertasiya işləri, qrant layihələri, çapa təqdim olunan məqalələr, yerli və beynəlxalq layihələrlə bağlı müraciətlər ali təhsil müəssisələri, elmi-tədqiqat institutları, kollec, ümumtəhsil və ya məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri tərəfindən (rektor və ya direktor) Tədqiqat Etikası Komissiyasına göndərilməlidir. Təhsil və elmi-tədqiqat müəssisələrinə kənardan müraciətlər rəsmi yazışmalar yolu ilə bilavasitə Azərbaycan Respublikasının Təhsil İnstitutunun Tədqiqat Etikası Komissiyasına təqdim edilməlidir.

2) Forma və qoşma sənədlərdə tarix və imza mütləqdir.

3) Müraciət forması tam doldurulmalı və imzalanmalıdır. Bundan əlavə, ərizəçinin təqdim etdiyi digər sənədlərin siyahısı yoxlama siyahısına əlavə kimi verilə bilər. Məktuba əlavə olaraq, akademik transkriptlər, əvvəlki tədqiqatların nəşrləri, tövsiyə məktubları kimi digər sənədlər (istənildiyi halda) təqdim oluna bilər. Müraciət prosesini asanlaşdırmaq üçün bütün lazımi sənədlərin düzgün təqdim edilməsi zəruridir.

4) Etik və əqli mülkiyyət qaydalarını yerinə yetirmək elmi tədqiqatların dürüst, etibarlı, ədalətli və cəmiyyət üçün məqbul olmasını təmin etmək baxımından vacibdir. Etik qaydalar tədqiqatçıların peşəkarlığını, fərdlərin hüquqlarını, qurumların məsuliyyətini və etibarını, cəmiyyətin isə elmi tədqiqatlara olan inamını qorumaq məqsədi daşıyır.

**Tədqiqat etikası qaydalarına riayət etməyin vacibliyinə dair ümumi müddəalar:**

a) İştirakçıların hüquqları və təhlükəsizliyi: etik qaydalar, tədqiqata cəlb olunan respondentlərin hüquqlarını qorumağı nəzərdə tutur. Buraya könüllü iştirak forması, razılıq, məxfilik və təhlükəsizliyə dair sənədlər daxildir.

b) Tədqiqatın dürüstlüyü və qərəzsizliyi: etik qaydalar tədqiqata ədalətli və qərəzsiz yanaşmağa imkan verir, ayrı-seçkiliyin qarşısını alır.

c) Məlumatların manipulyasiyası və saxtakarlığın qarşısının alınması: tədqiqatçıların məlumatları manipulyasiya etməməsi və ya saxtalaşdırmaması;

c.1: mövcud olmayan məlumatlardan istifadə - Tədqiqatçılar mövcud olmayan məlumatları uydura və tədqiqatda istifadə edə bilər;

c.2: məlumatların dəyişdirilməsi - Mövcud məlumatların dəyərləri qəsdən dəyişdirilə bilər. Bu, nəticələrin real vəziyyəti əks etdirmədiyini göstərir;

c.3: vacib məlumatları gizlətmək - Tədqiqatçılar nəticələrə təsir edən vacib məlumatları gizlədə bilər;

c.4: ikili nəşr (Duplicate Publication) - Eyni məlumat dəsti və ya nəticələr bir neçə məqalədə fərqli şəkildə dərc edilə bilər. Bu, elmi ictimaiyyəti yanılda bilər;

c.5: məlumatların seçiciliyi - Yalnız məqsədli şəkildə seçilmiş nəticələri göstərən məlumatlara önəm verilməsi, real vəziyyəti anlamaq üçün lazım olan bütün məlumatlardan istifadə edilməməsi elmi metodların tətbiqi qaydalarına ziddir.

c.6: hesablama/Statistik səhvlər - Hesablama və ya statistik səhvlərin qəsdən həyata keçirilməsi nəticələrin yanlış verilməsinə səbəb ola bilər.

c.7: müəllif etikasının pozulması -Tədqiqatda iştirak etməyən şəxslərə müəlliflik hüququnun verilməsi və ya tədqiqatda iştirak edən şəxslərin müəlliflər siyahısından çıxarılması.

ç) Cəmiyyətin xeyrinə töhfə: etik qaydalar tədqiqatların cəmiyyətə və elm aləminə fayda gətirməsini nəzərdə tutur. Tədqiqat nəticələri bütövlükdə cəmiyyətin inkişafına xidmət etməlidir.

d) Digər canlıların hüquqları və rifahı: heyvanlar üzərində araşdırmalar aparılırsa, etik qaydalar heyvanlara qayğı ilə yanaşmağa və onların rahatlığını qorumağa yönəlməlidir.

e) Tədqiqat nəticələrinin şəffaflığı: etik qaydalar tədqiqatçıları öz işlərinin nəticələrini şəffaf şəkildə təqdim etməyə və bölüşməyə imkan verir. Bu, elmi biliklərin etibarlılığını artırır.

ə) Münaqişə vəziyyətlərinin idarə edilməsi: etik qaydalar tədqiqatçıları münaqişə vəziyyətlərini idarə etməyə, toqquşan maraqlarını izah etməyə və dürüst davranmağa təşviq edir.

f) Məlumatların qorunması və məxfilik: etik qaydalar tədqiqatlarda istifadə olunan məlumatların təhlükəsizliyini təmin etmək və iştirakçıların məxfiliyini qorumaq məqsədi daşıyır.

**Qeyd:** Etik qaydalara uyğunluq elm aləmində nüfuzu artırır, tədqiqat sahəsində etimad qazandırır və cəmiyyətin elmi araşdırmaların həqiqiliyinə olan inamını gücləndirir. Buna görə hər bir tədqiqatçı üçün etik qaydaları gözləmək və praktikada tətbiq etmək vacibdir. Etik qaydalar, ümumiyyətlə, qurumlar, universitetlər və elmi jurnallar tərəfindən qurulan siyasət və təlimatlarda daha ətraflı təsvir edilməlidir.